CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA QANUN № 01 (351), 2024, s. 81-85

**Hacıbəyli Tural Bəhruz oğlu,**
hüquq üzrə fəlsəfə doktoru, "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin Hüquq departamentinin Qeydiyyat və məhkəmələrlə iş şöbəsinin müdiri
E-mail: turalhjbayli@gmail.com

**UOT 343**
**DOI 10.30546/2218-9130. 01.351.2024.81**

# ŞƏXSİYYƏTİN ANLAYIŞI: CİNAYƏT-HÜQUQİ MÜHAFİZƏNİN OBYEKTİ KONTEKSTİNDƏ

***Açar sözlər***: *şəxsiyyət, insan, fərd, cinayət hüququ, ictimai münasibətlər, qəsd obyekti.*

***Ключевые слова***: *личность, человек, индивидуум, уголовное право, общественные отношения, объект преступления.*

***Keywords***: *personality, person, individual, criminal law, social relations, object of crime.*

«Şəxsiyyət» sözü ilk başlanğıcda aktyorun geyindiyi maskanın, bir müddət sonra aktyorun özünün və oynadığı rolunun ifadəsi üçün işlədilmişdir. Sivilizasiyanın daha sonrakı dövrlərində isə bu sözdən insanın həyatda oynadığı real rolunun, tutduğu mövqeyinin ifadəsi üçün istifadə olunmuşdur. Bu baxımdan «şəxsiyyət» istilahının əsl mahiyyətinin dərki üçün, ilk növbədə, fəlsəfi, sosial-psixoloji müddəalara müraciət olunmalıdır. Fikrimizcə, bu anlayışa yalnız birgəyaşayış kimi deyil, həm də elmi kateqoriya kimi baxılmalıdır. "Şəxsiyyət" ifadəsi sözün geniş mənasında ictimai münasibətlərin və şüurlu fəaliyyətin daşıyıcısı olan subyekti, müəyyən şəxsi və ya fərdi insanı bildirmək üçün işlədilir; dar mənada isə «şəxsiyyət» ifadəsi bu və ya digər cəmiyyətə və ya birliyə məxsus olan üzvü, nisbi sabit sosial əhəmiyyətli cəhətləri ilə fərqlənən fərdi bildirir [9, s. 314].

Cinayət hüququnda cinayət törətmiş şəxsin şəxsiyyət kimi mahiyyəti, cinayət məsuliyyətinə cəlb etmə və ya məsuliyyətdən azad etmə, cəza təyini və ya cəzadan azad etmə zamanı onların şəxsiyyətinin əhəmiyyəti və bu səpgili digər məsələlər araşdırılır. Azərbaycan Respublikasının qüvvədə olan CM-nin VIII bölməsi "Şəxsiyyət əleyhinə olan cinayətlər" adlanır. Başqa sözlə, cinayət qanununun Xüsusi hissəsində nəzərdə tutulan cinayətlərin törədilməsi ilə qəsdə məruz qalan ictimai münasibətlərin bir qrupunu məhz şəxsiyyətin mühafizəsi ilə bağlı olan münasibətlərdir. Bu baxımdan, «şəxsiyyət» anlayışının və onunla bağlı olan oxşar ifadələrin (məsələn, insan, fərd) cinayət-hüquqi kontekstdə nəzərdən keçirilməsi vacibdir.

Əvvəlcədən qeyd edək ki, bu anlayışlar xeyli dərəcədə oxşar məzmuna malik olsa da, tam eyni məna kəsb etmir. Bioloji varlıq olan insanı digər canlılardan fərqləndirən başlıca əlamətlər onun şüur və nitqə malik olmasıdır. Dini təlimlərdə insana ruh və bədənin vəhdəti kimi baxılır. Vaxtı ilə qədim yunan mütəfəkkiri Platon da hesab edirdi ki, insan bir-birinə zidd olan ruh və bədənin vəhdətidir, ruh insanidir, bədən isə ruha düşmən olan materiyadır. İdealist fəlsəfədə insan ideal, ruhi, mənəvi tamlıq kimi, materialist

fəlsəfədə isə biopsixososial varlıq kimi nəzərdən keçirilir.

Sivilizasiyanın inkişaf tarixi insanın formalaşmasında bioloji, psixoloji və sosial amillərin vəhdət təşkil etdiyini sübut etmişdir. Bununla belə, müxtəlif cəmiyyətlərə və qruplara malik olan insanların bioloji növlərinin eyni olmasına baxmayaraq, onların davranış normaları, həyat tərzləri fərqli olur. Dil, şüur ilə yanaşı, yaşayış vasitələri istehsal etmək bacarığı insanın əsas fərqləndirici xüsusiyyətlərindən biri sayılır. Əmək prosesi insanda, eyni zamanda, təfəkkür və seçim imkanlarını formalaşdırır ki, bu cəhətlərinə görə də insan «yaradıcı varlıqdır» epitetini qazanmışdır. İnsanı fərqləndirən xüsusiyyətlərdən biri həmçinin onun özünü dərk edə bilməsi, həyat və baş verənlər haqqında düşünə bilməsi, istəklərini dərk olunmuş tələbata çevirib həyata keçirməyə cəhd etməsində ifadə olunur. Obrazlı desək, özünü dərk etmək insan inkişafının ali zirvəsi sayılır. Təsadüfi deyildir ki, qədim yunan mütəfəkkiri Sokrat insana «özünü dərk et» xitabı ilə müraciət etmişdir. Lakin insanın dərk etmək imkanlarının məhdud olduğunu düşünən dahi filosof bundan ötrü Allaha pənah gətirməyin lazım olduğunu ifadə etmişdir. Digər qədim yunan filosofu Demokrit isə Sokratdan fərqli olaraq insanın ilahi qüvvələrə deyil, təbiətə və özünə tapınmasını vacib hesab etmişdir [2, s. 314].

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək göstəririk ki, sadaladığımız bütün bu cəhətlərin məcmusu yenə də insanı şəxsiyyət olaraq tam xarakterizə etmir. Fəlsəfə elm sahəsinin özəlliyi ondadır ki, digər elm sahələrindən fərqli olaraq insanın öyrənilməsində inteqrativ rol oynayır. Bununla belə, insanın şəxsiyyət kimi statusunun müəyyənləşdirilməsində bu elmin müddəaları da tam olaraq kifayət etmir. Daha konkret desək, antropososiogenez kompleks xarakter daşıyır və insan probleminin öyrənilməsində bütün elm sahələrinin, o cümlədən humanitar və təbiət elmlərinin vəhdəti lazımdır.

İnsan ictimai varlıq olaraq ayrı-ayrı fərdlərdə konkretləşir, başqa sözlə, hər bir insan ayrıca fərd sayılır. İnsanın fərdiliyi və təkrarsızlığı əlamət və xüsusiyyətlərinin özünəməxsus əlaqələri ilə müəyyən olunur [7, s. 155]. Fərd dedikdə, həm yaşa dolmuş şəxs, həm yeni doğulmuş uşaq, həm də ruhi xəstələr, anlaqsız şəxslər başa düşülür. Fərdlərin içərisində yalnız yetkinlik yaşına çatmış və anlaqlı insan inkişafın subyekti olaraq ictimai münasibətlərə daxil ola bildiyindən şəxsiyyət kimi formalaşa bilir. Başqa cür desək, dünyaya fərd kimi gələn insan özünü dərk etmək yolu ilə, ictimai münasibətlərin iştirakçısına çevrilməklə, sosiallaşmaqla şəxsiyyətə çevrilə bilir. Marksist fəlsəfənin banisi K.Marks bu baxımdan hesab etmişdir ki, insanın mahiyyəti ayrıca fərdə xas olan mücərrədlik deyil, o, reallıqda bütün ictimai münasibətlərin məcmusudur [6, s. 3].

İnsan məfhumu çoxcəhətli anlayış olduğundan, həm ictimai, həm də təbii elmlərin tədqiqat obyekti hesab olunur. «İnsan fiziki və mənəvi, təbii və sosial, irsi və həyatda əldə edilənlərin vəhdətindən ibarət canlı sistemdir. İnsan həm hadisələrin təbii əlaqəsinə qoşulur, həm də biofiziki, biokimyəvi, fizioloji qanunauyğunluqlara tabedir. İnsan şüurlu psixi və şəxsiyyət səviyyəsində spesifik qanunauyğunluqları olan sosial varlığa çevrilmişdir. İnsan fiziki, mifoloji orqanizm kimi kainatda materiyanın ən yüksək mütəşəkkil formasıdır» [1, s. 463]. İctimai münasibətlər insanın əsl mahiyyətini müəyyən edir. R.Kiplinqin yaratdığı əsərin qəhrəmanı olan Mauqlini heç də yalnız yazıçı təxəyyülünün məhsulu hesab etmək düzgün deyildir. Belə ki, 1976-cı ildə Hindistanda canavar balaları ilə oynayan bir oğlan uşağına rast gəlinir. Danışa bilməyən bu uşaq heyvan kimi ulayır, bağırır, çiy ət yeyir, dörd ayaqlı kimi hərəkət etmişdir. 9 il ərzində ona əvvəlcə bir kəndli ailəsində, sonra isə monastırda insanın həyat tərzinin öyrədilməsinə ciddi səylər göstərilir, lakin bunların heç bir

səmərə vermir, uşağın səhhəti getdikcə pisləşir. Aparılan tibbi müalicələrin, dərmanların ona heç bir köməyi dəymir və o, «insana çevrilmədən» ölür. Bu baxımdan dialektik materialist fəlsəfə şəxsiyyətə ictimai münasibətlərin daşıyıcısı, sosial münasibətlərin məcmusu, sosiallaşmış insan kimi baxır. İnsan doğulur, «şəxsiyyət» isə insandan fərqli olaraq doğulmur, formalaşır.

R.Ouenə görə, insan «müəyyən fiziki, əqli və mənəvi qabiliyyət və keyfiyyətlərə malik olan, müəyyən predmetlərə meyilliliyi, digərlərinə isə antipatiyası olan mütəşəkkil varlıq və ya heyvandır» [8, s. 29]. İnsan özündə mənəvi ilə fizikinin, təbii ilə ictimainin birliyini əks etdirən canlı sistemdir. Canlı orqanizm olaraq insan hadisələr ilə təbii əlaqələrə daxil olur, bioloji qanunauyğunluqlara tabe olur, şüurlu psixika və şəxsiyyət səviyyəsində özünün spesifik qanunauyğunluqları ilə sosial münasibətlərə girir [4, c. 21; 12, c. 89]. Bu anlayış insanın həm bioloji təbiətini, həm də sosial mahiyyətini əks etdirdiyindən fəlsəfidir.

İ.İ.Xomiç hesab edirdi ki, insan bir-biri ilə qarşılıqlı əlaqədə olan çoxsəviyyəli canlı sistemdir: struktur, funksional, psixi, idrak və əməl səviyyələri. Struktur səviyyəsinə mücərrəd şəkildə funksional səviyyənin yaranmasının maddi əsası kimi baxıla bilər. İkinci səviyyənin bazasında canlı sistemin daha yüksək səviyyəsi olan psixi səviyyə formalaşır və bu, idrak səviyyəsinin formalaşmasının təbii şərti sayılır. Əmək fəaliyyətinin təsiri altında yaranan idrak və əməl-fəaliyyət səviyyəsi canlı sistemin bütün digər səviyyələrində öz izini qoyur və bununla da bütün sistemi sosial inteqrasiyalı edir [13, c. 68]. A.N.Krasikov göstərmişdir ki, hər bir insan şəxsiyyət sayılmır, o insan şəxsiyyət sayıla bilər ki, doğulan zaman əldə etdiyi hüquq və azadlıqlara müstəqil sahiblik etmək, sərəncam vermək, habelə dövlət tərəfindən müəyyən olunmuş öhdəlikləri müstəqil icra etmək qabiliyyətinə malikdir [5, c. 5].

Qanunvericilikdə fiziki anomaliyalarla doğulmuş, letargiya yuxusuna tutulmuş şəxslərin də hüquqi statusu ilə bağlı məsələlər sonacan tənzimlənməmişdir. 1950-ci ildə Moskva şəhərində bellərinəcən bir-birlərinə birləşmiş iki əkiz qız doğulur. Bu qızların hər biri ayrı beyin sisteminə malik olmaqla bir ayaqla hərəkət edirlər. 16 yaşları tamam olanda onların hər birinə şəxsiyyətlərini təsdiq edən pasport verilmişdi. Yaxud 1988-ci ildə CAR-da iki başa, lakin bir bədənə malik olan qız uşağı doğulmuşdu. Çində bir yaşlı uşaq çarpayıdan yerə yıxılır və boyun nahiyəsindən zədə alır. Uşaqda nəfəs alma, ürək döyüntüsü, udma kimi reflekslər mövcud olsa da, 11 il koma vəziyyətində qalır. Uşağın beynində olan şiş cərrahiyə əməliyyatı yolu ilə götürüldükdən sonra o, koma vəziyyətindən çıxır. Yaxud 1954-cü ildə Dneprpetrovsk şəhərində ailədə baş vermiş mübahisədən sonra ana huşunu itirir və yuxuya gedir. Ailə üzvləri onu yuxudan ayılda bilmədiklərindən xəstəxanaya gətirirlər. Xəstəxanada həkimlərin müşahidəsi altında yuxulu vəziyyətdə 4 il ərzində zond vasitəsi ilə qidalanır. Bundan sonra anası onu yaşadığı kəndə aparır. Burada da həmin qadın 16 il ərzində yuxudan oyanmır. Anasının ölüm günü yuxudan oyanan qadın iki həftə ərzində psixoloji cəhətdən yeni həyata uyğunlaşır, lakin 20 il ərzində onunla nə baş verdiyini xatırlamır. İnformasiya bolluğunun olduğu müasir dövrümüzdə belə fiziki anomaliyalarla doğulan uşaqlar barəsində məlumatlara demək olar ki, tez-tez rast gəlmək olur. Həm letargiya yuxusunda olanlar, həm də insan cəmiyyətindən ayrı düşərək təbii mühitdə heyvanlar tərəfindən tərbiyə olunmuş şəxsləri hüququn subyekti kimi tanımaq lazımdır. Onlar anlaqsız olmasalar da, mövcud vəziyyətlərində belə şəxslərə müəyyən dərəcədə oxşayırlar.

Şəxsiyyət özündə ümumi cəhətlərlə yanaşı, fərdi olanları da birləşdirib ifadə edir. Hər bir insan ictimai və fərdi varlığın qarşılıqlı təsiri olan fərdi keyfiyyətlərə malikdir. Mövcud ictimai mü-

hit şəxsiyyətə insanın daxili aləmi vasitəsilə təsir edir. Bu baxımdan S.L.Rubinşteynin aşağıdakı fikri yerinə düşür ki, bütün xarici, o cümlədən, ictimai təsirlərin səmərəliliyi onların yönəldiyi daxili şəraitdən asılıdır [10, s. 138]. R.Miller isə göstərmişdir ki, həyatın, tərbiyəçilərin, kitabların və sonsuz kənar təsirlərin insana verdiklərindən, o, yalnız hər hansı şəkildə biologiyası, tərcümeyi-halı, keçmiş təcrübəsi, ideyaları, əhvali-ruhiyyəsi, şəxsi xüsusiyyətləri, mənafeləri və s. ilə uyğun olanlarını götürür, müəyyən nəticələr çıxarır və onlara əsaslanmaqla özünün həyat yolunu müəyyənləşdirir [7, c. 157]. A.Q.Spirkin hesab etmişdir ki, «şəxsiyyət» onu təşkil edən üç cəhətin məcmusudur: biogenetik cəhətlər, sosial amillər (mühit, şərait, normalar və s.) və psixo-sosial nüvə (“mən”) [11, s. 462]. Bəziləri şəxsiyyətin ümumi strukturunu onun dörd cəhətinin qarşılıqlı əlaqəsindən ibarət hesab edir: bioloji cəhət, psixi proseslərin fərdi xüsusiyyətləri ilə müəyyən olunan cəhət, fərdi təcrübə nəticəsində əldə olunmuş cəhət və sosial şərtlər ilə müəyyən olunmuş cəhət. Təsadüfi deyildir ki, eyni sosial mühitdə doğulan, yaşayan, formalaşan insanlar bir-birindən fərqlənir, hər biri ayrıca fərd olur. Bu mənada şəxsiyyəti eyni təkrarı olmayan fərdiyyət kimi tanımaq lazımdır.

Şəxsiyyət haqqında, əsas etibarı ilə, iki ümumiləşmiş konsepsiya mövcuddur: 1) şəxsiyyət – insanın funksional səciyyəsidir; 2) şəxsiyyət – insanın mahiyyət səciyyəsidir. Birincisi insanın cəmiyyətdə oynadığı rolu, həyata keçirdiyi ictimai funksiyaları ifadə edir. Burada daxili mahiyyət deyil, zahiri fəaliyyət ön plana çəkilir. İkincisi isə insanın daxili mənəvi potensialını, xarakter və iradəsini, mənəviyyatını ifadə edir. Düşünürük ki, hər iki konsepsiya vəhdətdə götürülməli, şəxsiyyətə sosial münasibətləri fərdiləşmiş şəkildə ifadə edən, hüquq və vəzifələrin özünə məxsus birgə daşıyıcısı kimi baxılmalıdır.

Əlbəttə, «şəxsiyyət» və «insan» anlayışlarının qarşılıqlı əlaqəsi barədə qeyd etdiyimiz müddəaları cinayət hüququ təlimi nöqteyi-nəzərindən qəbul etmək çətindir. Rus müəllifi İ.L.Petruxin haqlı olaraq qeyd etmişdir ki, hüquqi nöqteyi-nəzərindən daha geniş mənada «şəxsiyyət» və «insan» anlayışları eynidirlər [3, s. 188]. Əks mövqe CM-də şəxsiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan 8-ci bölmənin yalnız şəxsiyyət kimi formalaşmış və hüquq və vəzifələrini müstəqil həyata keçirmək qabiliyyətində olan şəxsləri müdafiə altına alması, uşaqların, qoca və köməksiz vəziyyətdə olan, habelə psixi pozuntularından əziyyət çəkən şəxslərin isə cinayət-hüquqi müdafiədən kənarda qalması barədə yanlış nəticəyə gəlməyə əsas verərdi. Ona görə də cinayət hüquqi müdafiə mənasında “insan”, “fərd”, “şəxsiyyət” anlayışları bərabər qəbul olunmalıdır.

Beləliklə, “insan”, “fərd”, “şəxsiyyət” kateqoriyaları üzrə apardığımız təhlil belə bir nəticə çıxarmağa əsas verir ki, cinayət-hüquqi mühafizə obyekti qismində bu kateqoriyaların qarşı-qarşıya qoyulması üçün heç bir əsas yoxdur. Cinayətin ümumi obyekti olaraq şəxsiyyət sosial vəzifələr və ictimai münasibətlər sistemində bir insan kimi nəzərdən keçirilir. Şəxsiyyət həm bioloji varlıq, həm də müəyyən hüquq və vəzifələrin, azadıq və sosial nemətlərin daşıyıcısıdır. Şəxsiyyət ictimailəşmiş, sosial münasibətlərə girən insan mənasını verir. Ona görə də cinayət qanununda ümumi obyektin ifadəsi üçün “şəxsiyyət” anlayışının istifadəsi daha uğurludur.

**İstifadə olunmuş mənbələr:**

1. Azərbaycan Sovet Ensiklopediyası / Baş redaktor C.B.Quliyev. – Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, – c. 4, – 1980. – 592 s.

2. Makavelski A.O. Qədim yunan atomistləri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, – 1946. – 399 s.

3. Конституция Российской Федерации: Научно-практический комментарий / Под ред. Б.Н.Топорнина. – Москва: Юристъ, – 1997. – 726 с.

4. Корнеев П.В. Проблема человека в современной философии. – М., Изд. Моск. ун-та, – 1967.

5. Красиков А.Н. Уголовно-правовая охрана прав и свобод человека в России. Саратов: Полиграфист, – 1996. – 211 с.

6. Маркс К. и Энгельс Ф. Соч., Т. 3. – Москва: Государственное Издательство Политической Литературы, – 1955. – 650 с.

7. Миллер Р. Личность и общество. – М., Прогрес, – 1965. – 296 с.

8. Мир философии. Книга для чтения. Человек. Общество. Культура. [В 2 ч / Сост. П.С.Гуревич, В.И.Столяров]. – М.: Политиздат, – 1991. – 624 с.

9. Новейший философский словарь: 2-е изд., перераб. и доп. – Минск: Интерпрессервис; Книжный Дом, – 2001. – 1279, [1] с.

10. Рубинштейн С.Л. Принципы и пути развития психологии. – М., Изд. АН СССР, – 1959.

11. Спиркин А.Г. Основы философии. – М.: Политиздат, 1988. – 592 с.

12. Фролов И.Т. О человеке и гуманизме: Работы разных лет. – М.: Политиздат, –1989. – 559 с.

13. Хомич И.И. Человек – живая система: Естественнонаучный и философский анализ. – Минск: Беларусь, – 1989. – 271 с.

**Гаджибейли Турал Бахруз оглу**

## ПОНЯТИЕ ЛИЧНОСТИ: В КОНТЕКСТЕ ОБЪЕКТА УГОЛОВНО-ПРАВОВОЙ ЗАЩИТЫ

### РЕЗЮМЕ

В статье автор анализирует категории «человек», «индивид», «личность», как объекты уголовно-правовой защиты и приходит к выводу, что нет серьезных оснований противопоставлять эти понятия, как объект уголовно-правовой защиты. Личность рассматривается, как индивидуум в системе социальных обязанностей и общественных отношений, как общий объект преступления. Личность означает социализированное лицо, вступающее в общественные отношения. Поэтому, в уголовном законе для выражения общего объекта считается целесообразным использовать понятие «личность».

**Hajibayli Tural Bahruz**

## THE CONCEPT OF PERSONALITY: IN THE CONTEXT OF THE OBJECT OF CRIMINAL LEGAL PROTECTION

### SUMMARY

In the article, the author analyzes the categories "person", "individual", "personality" as objects of criminal legal protection and comes to the conclusion that there is no serious reason to oppose these concepts as an object of criminal legal protection. A person is considered as an individual in a system of social responsibilities and social relations, as a common object of crime. Personality means a socialized person entering into social relations. Therefore, in criminal law it is considered appropriate to use the concept of "personality" to express a general object.

**Redaksiyaya daxilolma tarixi: 07.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 11.01.2024**
**Çapa qəbul olunma tarixi: 14.01.2024**